AZƏRBAYCAN RESPUBLİKASININ
DAXİLİ İŞLƏR NAZİRLİYİ

AZ 1005 - Bakı şəhəri, Azərbaycan pr. 7
tel:+994 12 590 91 03; faks:+994 12 492 45 90; 590 97 47

web: www.mia.gov.az
e-mail: info@mia.gov.az

«13» 10 2017 il

№ 001-45621-1217

Avropa Şurasının insan hüquqları
üzrə Komissarı

cənab Nils Mujnieksə

*Hörmətli cənab Mujnieks!*

Bakı şəhərində cinsi azlıqların nümayəndələrinin saxlanılması ilə bağlı məlumatların təqdim edilməsi barədə müraciətinizə baxılmışdır.

İlk növbədə bildiririk ki, cari ilin ötən dövründə ictimai qayda və ictimai təhlükəsizlik əleyhinə inzibati xətalar törədən, o cümlədən avaralıqla məşğul olan, xırda oğurluq yaxud dilənçilik yolu ilə dolanan şəxslər, həmçinin cinsi azlıqların nümayəndələrinin şəhərin mərkəzi hissəsində cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərə yol verməklə, axşam saatlarında qrup şəklində yerli vətəndaşlara və əcnəbi turistlərə pul müqabilində intim xidmətlərin təklif edilməsi, imtina edənlərin təhqirə məruz qalması və münaqişəyə təhrik edilməsi barədə çoxsaylı şikayətlər daxil olmuşdur. Davamlı xarakter almış bu cür qanunazidd əməllər, xüsusən cinsi azlıqların nümayəndələri tərəfindən Bakı şəhərində vətəndaşlara və əcnəbilərə qarşı zorakı cinayətlərin, o cümlədən quldurluq və soyğunçuluqların törədilməsi onlardan zərərçəkən, eləcə də cinsi azlıqların mütəmadi toplaşdığı yerlərə yaxın ərazilərdə yaşayan şəxslərin ciddi narazılığını doğurmuşdu.

**Bütün bunlarla əlaqədar sentyabr ayının 15-dən 30-dək olan müddətdə Bakı şəhərinin polis orqanları tərəfindən həyata keçirilmiş profilaktik tədbirlərlə ictimai qayda və ictimai təhlükəsizlik əleyhinə inzibati xətalara görə bütövlükdə 600-ə yaxın şəxs barəsində məsuliyyət tədbirləri görülmüşdür. O cümlədən paytaxtın müxtəlif ərazilərində toplaşan cinsi azlıqların yüzlərlə nümayəndəsindən yalnız ictimai qaydanı kobud surətdə pozaraq xırda xuliqanlıq törədən, həmin yerlərdə ictimai qaydanın mühafizəsi vəzifəsini icra edən polis işçilərinin qanuni tələblərinə qəsdən tabe olmayan 83 nəfəri saxlanılmış və barələrində qanunvericiliklə müəyyən edilmiş qaydada sənədləşmə aparılmışdır.**

**Saxlanılan şəxslərin yol verdikləri qanun pozuntuları məhkəmə qaydasında sübuta yetirildiyindən 56 nəfəri barəsində İnzibati Xətalar Məcəlləsinin 510-cu** (Xırda xuliqanlıq) **və 535.1-ci** (Polis işçisinin qanuni tələbinə qəsdən tabe olmama) **maddələri ilə 5 gündən 30 günədək inzibati həbs tətbiq olunmuş** (sentyabrın 16-da 46 nəfər, sentyabrın 18-də 5 nəfər, sentyabrın 26-da 5 nəfər), **18 nəfər cərimələnmiş və 9 nəfərə xəbərdarlıq edilmişdir.**

**Həbs olunmuş şəxslərin hüquqlarını müdafiə edən vəkillərin müraciətlərinə əsasən, onlar, müayinə üçün aidiyyəti tibb müəssisələrinə göndərilmişlər. Tibbi-laborator müayinələrin nəticələrinə görə 32 nəfərdə müxtəlif zöhrəvi xəstəliklər, o cümlədən 16 nəfərdə "sifilis", 6 nəfərdə "AİDS", 6 nəfərdə "HİV", 2 nəfərdə "kəskin uretrit", "kandida albikans", "trixomoniaz", daha 2 nəfərdə "Hepatit HCV" virusu aşkarlanmışdır.**

**Bununla belə, humanizm prinsipi rəhbər tutularaq həmin şəxslərin müalicə olunmalarına şərait yaradılması məqsədilə, eləcə də zöhrəvi xəstəlik aşkar edilməmiş daha 24 nəfərin həbsdə saxlanıldığı müddətin islah olunmaları üçün kifayət etməsi nəzərə alınaraq, onlar oktyabr ayının 2-də məhkəmələr tərəfindən vaxtından əvvəl inzibati həbsdən azad edilmişlər.**

Saxlanılan cinsi azlıqların nümayəndələrinin hüquqlarının pozulması məsələsinə gəldikdə isə qeyd edilməlidir ki, bu cür iddiaların heç bir əsası yoxdur. Həmin şəxslərin saxlanılmasında məqsəd - yalnız vətəndaş şikayətlərini doğuran halları müəyyənləşdirib qarşısını almaq, insan və vətəndaş hüquq və azadlıqlarını, onların sağlamlığını, əhalinin sanitar-epidemioloji salamatlığını, ictimai qaydanı, ictimai təhlükəsizliyi qorumaq olmuşdur.

Ümumən, Azərbaycanda bütün qrup insanların hüquqları heç bir məhdudiyyət olmadan təmin edilir və cinsi azlıqlarla bağlı respublikamızda mövcud olan vəziyyət əksər Avropa dövlətlərindəki vəziyyətdən fərqlənmir. Lakin son illər ölkəmizdə hansısa hüquqazidd əməli törətmiş cinsi azlığın nümayəndələri özlərinin cinsi oriyentasiyasını önə çəkməklə məsuliyyətdən yaxa qurtarmağa çalışırlar. Bu cür məsələlər isə, Azərbaycanda, yalnız müvafiq beynəlxalq təşkilatların da hüquqi ekspertizasından keçmiş qanunvericilik aktları çərçivəsində həll edilir. Odur ki, cinsi azlıqların nümayəndələrinin hüquqazidd əməl törətməsi onları məsuliyyətdən azad edə bilməz və hər bir şəxsin qanun və məhkəmə qarşısında bərabər olması kimi konstitusion norma nəzərə alınaraq bütün hallarda törədilən əmələ görə cəzanın labüdlüyü prinsipi təmin edilir.

Digər tərəfdən, Sizə də məlum olduğu kimi, Azərbaycan multikulturalizmin və tolerantlığın inkişafına dünyada böyük töhfələr verən ölkələrdəndir. Bunun əyani sübutlarından biri - müvafiq sahədə respublikamızda çoxsaylı forum və konfransların keçirilməsidir. Amma danılmaz həqiqətdir ki, dözümlülük və tolerantlıq da qanunvericiliyə riayət edilməsinə və ona hörmətə mütənasib olmalıdır.

Azərbaycan hökuməti, onun hüquq mühafizə orqanları və digər əlaqədar qurumları bu cür məsələlərə yanaşmada məhz ölkəmizin beynəlxalq öhdəliklərini, Konstitusiyasını və daxili qanunvericilik aktlarını rəhbər tutaraq öz işini davam etdirir, ictimai asayişi etibarlı qoruyurlar.

***Böyük hörmət və ehtiramla,***

**N a z i r** **Ramil Usubov**

*Unofficial translation*

*Ref no. 001-45621-1217, dated October 13, 2017*

**Council of Europe**
**Commissioner for Human Rights**
**Nils Muižnieks**

***Dear Mr. Muižnieks!***

**We've considered your request to provide information about the facts of detention of sexual minority representatives in the city of Baku.**

**First of all, please be informed that we received numerous complaints over the elapsed period of the current year about gross number of administrative violations of public order and persons involved in idleness, minor thefts or begging, as well as complaints about offering sexual services for money to locals and foreign tourists by sexual minority representatives showing obvious disrespect for society in the center of the city and insulting those who refused and provoking conflicts. These wrongful acts of a permanent nature, particularly violent crimes committed by sexual minorities against locals and foreigners, including robbery and plunder caused serious dissatisfaction of suffered persons and people living in the areas close to the place of their regular gathering place.**

**In view of the above, between September 15-30, appropriate measures were taken by the police authorities of the city of Baku against 600 persons involved in administrative violations of public order and security. From hundreds of sexual minority representatives gathering in various parts of the capital only 83 of them were detained for violation of public order, offenses to public morality and willful insubordination to legal requirements of police officers who were discharging their duties of public order maintenance in those districts. All necessary documents were properly executed in accordance with a procedure prescribed by the law.**

Taking into account that courts established the guilt of the offenders, 56 of them were placed in administrative detention for a period from 5 to 30 days under Article 510 of the Code of Administrative Offences (disorderly conduct) and 535.1 (willful insubordination to legal requirements of police officers) (46 persons on September 16, 5 persons on September 18, 5 persons on September 26), 18 persons were fined and 9 persons received notices.

Based on appeals of lawyers who protected rights of the detained persons, they were referred to relevant medical facilities for examination. According to results of the conducted medical and laboratory examinations, various sexually transmitted diseases were revealed in 32 persons including AIDS (6 persons), HIV (6 persons), syphilis (16 persons), acute urethritis, Candida albicans and trichomoniasis (2 persons) and Hepatitis C virus (2 persons).

In light of this, for the purpose of treatment of these persons according to principles of humanity and taking into account the sufficient detention period for correctional rehabilitation of other 24 persons with no diseases revealed, they were released early by courts on October 2.

As regards the issue of violation of rights of sexual minority representatives, it should be noted that there is no cause to file such claims. The only purpose of detention of the above mentioned persons was to detect and prevent any facts which cause discontent of population as well as to protect public health, sanitary and epidemiological wellness, public order, security and morality.

Rights of all groups of population in Azerbaijan are protected without any restriction and situation with sexual minorities in our country is no different from situation in most European states.

However, there have recently been increasingly frequent attempts of sexual minority representatives to insulate themselves from liability for any wrongful acts committed in our country by bringing to the forefront their sexual orientation. And such cases are settled in Azerbaijan only within the guidelines of the law which passed legal expert review in the relevant international organizations.

That is to say that belonging to sexual minority may not exempt from liability and the principle of inevitability of punishment for a committed offense is applied in all cases based on the constitutional provision about equality of every person before the law and courts.

**At the same time, as you are aware, Azerbaijan is one of the countries which make the most significant contribution in the world to the development of multiculturalism and tolerance. Numerous forums and conferences held in our republic in this sphere are clear evidence of our success. However it is an indisputable truth that tolerance should respect the law.**

**The government, law-enforcement authorities and other relevant institutions of Azerbaijan continue their work on such issues, safeguard public safety and secure law and order just in accordance with the Constitution and legislative instruments of our country.**

***With deep respect,***

**M i n i s t e r** **Ramil Usubov**

**(signed)**

***Translation made and approved by International Cooperation Department of Ministry of Internal Affairs of the Republic of Azerbaijan***